*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 may 2017-ci il № 37 (2154) Qiymәti 25 qәpik


Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var

*Dünyanın ən gözəl dilində sən danışırsan, dünyanın ən gözəl yerində sən yaşayırsan. Dünyanın ən gözəl dilində danışanların, ən gözəl yerində yaşayanların Vətənini qoruyursan, Azərbaycan əsgəri!*

Azərbaycan əsgəri dayandığı mövqeni Vətənin bir parçası kimi deyil, bütöv Vətən kimi qoruyur, düşmənin hər tərpənişini diqqətlə izləyir. Düşmən atəşkəsi pozanda, təxribat törətmək istəyəndə qarşısını qətiyyətlə alır, döyüşür, onu geri çəkilməyə məcbur edir.

Azərbaycan əsgəri Ali Baş Komandanın "Azərbaycan bayrağı Xankəndidə, Şuşada dalğalanacaq!" fikrini döyüş əmri bilib xidmət edir.

Sinəsini dayandığı səngərə sipər edən Azərbaycan əsgəri ona etibar edilmiş mövqeni əzəli sərhədlərimizə köçürmək niyyətiylə qoruyur. Bu, onun amalıdı, əqidəsidi. Hər biri məqamında Mübarizləşmək, Muradlaşmaq, Samidləşmək, Çingizləşmək üçün xidmət edir. Hər biri torpaqlarımızın işğaldan azad ediləcəyi günün ovqatı üçün xidmət edir. Sülh danışıqları baş tutmasa, döyüş ruhu ilə xidmət edir.

Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan əsgəri "Vətəni sevmək azdı, məqamında Vətənə görə şəhid olmağı da bacarmalısan" fikrinin, Dövlət himnimizdə Azərbaycana xitabən deyilən "Səndən ötrü can verməyə cümlə hazırız!" andının dönməzliyi ilə xidmət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var" kəlamının qüruru ilə xidmət edir...

2016-cı ilin aprel döyüşləri, bu döyüşlərdə qazanılan qələbə Azərbaycan əsgərinin Vətən sevgisinin təsdiqi oldu. Ali Baş Komandanın "Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir" kəlamı Azərbaycan əsgərinin şücaətinə, igidliyinə, qətiyyətinə verilən yüksək dəyərdir. Azərbaycan əsgəri bu dəyərin zəmanətiylə xalqımıza Böyük Qələbənin də sevincini, qürurunu yaşadacaq; Ali Baş Komandanın əmri ilə döyüşüb möhtəşəm Qələbə qazanacaq.



Çingiz Qurbanovun dəfn mərasimi də, ona Azərbaycanın Milli Qəhrəmanı adının verilməsi də, Müdafiə nazirinin əmri ilə adının xidmət etdiyi bölüyün şəxsi heyətinin siyahısına daimi yazılması da, xidmət etdiyi posta adının verilməsi də, aprel döyüşlərinin ildönümünə həsr olunmuş təntənəli tədbirdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun baş leytenant Azər Məmmədovu "Şücaətə görə" medalı ilə təltif etdiyi məqam da heç zaman unudulmayacaq. Döyüşlərdə yaralanmış zabitə bu sayğı ümumən orduya sayğı kimi yaşanılır, yaşanılacaq. Azərbaycan əsgəri bir daha əmin oldu ki, əsgər Vətən üçün nə qədər dəyərlidi, Vətən əsgəri necə dəyərləndirir.

Bu fikirləri Əməkdar İncəsənət xadimi Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla Ağcabədidə keçirilən "Dövlətə sədaqət, Vətənə sevgi" devizi ilə keçirilən tədbir də təsdiqləyir...

...Müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq.

Əsgər əsgərdi. Müharibə şəraitində hamı əsgərləşməlidi. Aprel döyüşlərində belə oldu. Qarabağ müharibəsi veteranlarının, əlillərinin, tələbələrin, yeniyetmələrin döyüşlər gedən ərazilərə axını təsdiqlədi ki, döyüşdə ürəyinin tələbiylə hamı əsgər olmağa, döyüşlərdə iştirak etməyə hazırdı. Nə qədər ki, torpaqlarımız işğaldan azad edilməyib, bu ovqatla yaşanılmalıdı. Düşmənlə üzbəüz dayanmış əsgərlərimizə ən böyük mənəvi dəstək məhz budur; müharibə başa çatana kimi hamı müsəlləh əsgərdir.

...Sən Vətənin əsgərisən, Azərbaycan əsgəri! Vətən deyənlərin, torpaq deyənlərin, qalib əsgər olacağına inananların hamısı sənin amalının əsgəridi!..

Sən Böyük Qələbənin əsgərisən, Azərbaycan əsgəri! "Qələbə" kəlməsinin şirinliyini də ruhumuza sən hopduracaqsan!..

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

## Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO toplantısında iştirak edəcək



Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov NATO Hərbi Komitəsinin "Qətiyyətli dəstək" formatında keçiriləcək görüşündə iştirak etmək üçün Brüssel şəhərinə (Belçika Krallığı) yola düşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir mayın 17-də NATO-nun mənzil-qərargahında baş qərargah rəisləri səviyyəsində keçiriləcək.

## Azərbaycan nümayəndə heyəti "Beynəlxalq Ordu Oyunları - 2017" yarışlarının təşkili üzrə konfransda iştirak edəcək

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanovun rəhbərlik etdiyi nümayəndə heyəti "Beynəlxalq Ordu Oyunları - 2017" yarışlarının təşkili üzrə mayın 17-də keçiriləcək 3-cü planlaşdırma konfransında iştirak etmək üçün Moskva şəhərinə yola düşüb.

Qeyd edək ki, "Beynəlxalq Ordu Oyunları - 2017" yarışlarının cari ilin iyulun 29-dan avqustun 12-dək 5 ölkə (Azərbaycan Respublikası, Belarus Respublikası, Qazaxıstan Respublikası, Çin Xalq Respublikası və Rusiya Federasiyası) ərazisində keçirilməsi planlaşdırılır.

## Azərbaycan silahları uğurla nümayiş etdirildi

"İDEF-2017" beynəlxalq müdafiə sərgisində Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində istehsal edilən hərbi təyinatlı məhsullar da nümayişə çıxarılmışdı. MSN artıq beşinci dəfədir, İDEF sərgisində təmsil olunub. Dörd gün davam edən sərgidə Azərbaycan müəssisələrində yaradılan və istehsal olunan 260 adda müdafiə təyinatlı məmulat nümayiş etdirilib.

Maraqlıdır ki, bu dəfə MSN-in stendində yeni məhsullar da yer alıb. Yerli mütəxəssislər tərəfindən hazırlanan "Tufan" milli zirehli maşını, "Vaşaq" snayper tüfəngi, lüləaltı qumbaraatan, 12,7 mm-lik silahla təchiz olunmuş məsafədən idarə olunan döyüş modulu kimi bir sıra yeni məmulatlar xarici ölkədə keçirilən müdafiə sənayesi sərgisində ilk dəfədir ki, nümayiş etdirilib və böyük maraqla qarşılanıb.

Müdafiə Sənayesi Nazirliyinin stendini ziyarət edən Monqolustanın Müdafiə naziri Badmaanyambuu Bat-erdene və müdafiə sənayesi müstəşarı Byambaa Kolya ilə iki ölkə arasında müdafiə sənayesi üzrə əməkdaşlığın yaradılmasına dair danışıqlar aparılıb.



Mətbuata müsahibəsində nazir Yavər Camalov bildirib ki, Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi məhsulların çeşidi təxminən 1200-ə çatıb. Ölkə daxilində - Müdafiə Nazirliyi, Daxili Qoşunlar, Sərhəd Qoşunları və digər qurumların təmin etməklə yanaşı, dünyanın təxminən 10 ölkəsinin müvafiq qurumlarına da silah-sursat ixracı başlayıb: "Bu günə qədər imzaladığımız müqavilələrin ümumi həcmi təxminən 101 milyon dollardır.

Nazirin sözlərinə görə, beynəlxalq sərgilərdə iştirak etməyin əsas mahiyyəti ondan ibarətdir ki, ixrac imkanlarımızı artıraq. "Biz artıq Türkiyədə keçirilən tenderlərdə iştirak etmişik. Bu yaxınlarda qalibi elan olunduğumuz tenderin həcmi təxminən 9 milyon dollardır. Prosesi davam etdiririk. Təkcə Türkiyədə yox, dünyanın digər ölkələrində müvafiq qurumların tenderlərində iştirak etməyə çalışırıq. Bu da bizim ixrac imkanlarımızı artırmağımıza şərait yaradır."

"İDEF-2017" sərgisinə qatılan ölkələrin nümayəndə heyətlərinə Müdafiə Sənayesi Nazirliyinin əməkdaşları tərəfindən 2018-ci ildə Azərbaycanda keçiriləcək "ADEX-2018" üçüncü Beynəlxalq müdafiə sərgisi ilə bağlı məlumatlar verilib.

**"Azərbaycan Ordusu"**



## Rabitəçilər peşəkarlıqlarını möhkəmlədirlər

Hərbi hissənin qərargahında düşmənlə üzbəüz mövqelərdə atəşkəsin pozulmadığı, gün ərzində sakitlik olduğu bizə məlum oldu. Birinci eşelonda vəziyyət barədə məlumatı isə daim vəzifə borclarını məsuliyyət hissi ilə yerinə yetirən rabitəçilərimiz çatdırmışdılar.

Doğrudan da, Vətənin hüdudlarının müdafiəsində dayanan oğullar arasında rabitəçilərin öz xidməti, öz yeri var. Hərbi bölmələrin idarə olunmasında rabitənin önəmi böyükdür. Döyüş əməliyyatları zamanı davamlı əlaqənin yaradılması düşmən üzərində üstünlük qazanılması üçün olduqca vacib amillərdəndir. Məhz bu səbəbdən hərbi hissələrimizdə rabitəçilərimizin hazırlığına lazımi diqqət yetirilir. Bölmənin şəxsi heyəti qarşılıqlı əlaqənin təşkilində rabitənin rolunu başa düşür və yerinə yetirdikləri vəzifənin məsuliyyətini dərindən dərk edir.

### Fasiləsiz əlaqənin yaradılması başlıca vəzifədir

- Bizim hərbi kollektiv bacarıqlı, vətənpərvər zabit və əsgərlərdən ibarətdir, - zabit Həsən Mahmudov bizimlə söhbətində bildirdi. - Hazırda hərbi hissənin rabitəçiləri gecə-gündüz demədən döyüş növbəsini yerinə yetirir, bilavasitə bölmələrlə yuxarı komandanlıq arasında dayanıqlı və fasiləsiz rabitə əlaqəsinin yaradılması ilə məşğuldurlar. Yuxarı komandanlıqla tabelikdəki bölmələr arasında davamlı əlaqənin saxlanması üçün növbəyə gedən mexanik-telefonçular, teleqrafçılar hər dəfə ciddi təlimatlandırılırlar. Ona görə rabitəçilər hər an döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə hazırdırlar.

Tabelikdə olan bütün hərbi hissələrlə rabitə əlaqəsi bir an da olsun kəsilmir. Gün ərzində həm tabelikdə olan bölmələrlə, həm də yuxarı komandanlıqla əlaqə saxlanarkən rabitəçilər xətdə məxfiliyi, operativliyi, dəqiqliyi mütləq qaydada gözləyirlər.

Rabitəçilərin qüsursuz fəaliyyətinin təşkilində, hər şeydən öncə, zabitlərin xidmətini qeyd etmək yerinə düşər. Peşəkar kadrlar öz sənətlərinin mütəxəssisləridir.

Onlar döyüş və ixtisas hazırlığı məşğələlərində şəxsi heyətin rabitəçi kimi bacarıqlarının artırılması üçün əllərindən gələni əsirgəmir, öz bilik və vərdişlərini gündəlik xidmət prosesində də rabitəçi əsgərlərə həvəslə öyrədirlər.

Nümunəvi xidmətlə seçilən zabitlərdən kapitan Emil Hüseynovun, baş leytenant Türkan Cəfərovun, leytenant Şamo Musayevin adlarını qərargahda razılıq hissilə qeyd etdilər. Bu bacarıqlı zabitlər hərbi hissədə nizam-intizamın qorunması, şəxsi heyətin peşəkarlığının artırılması üçün bilik və bacarıqlarını daim artırırlar.

### "El bir olsa, dağ oynadar yerindən"

Aprel döyüşlərində rabitəçilər də qarşıya qoyulmuş döyüş tapşırığının yerinə yetirilməsi üçün bütün imkan və bacarıqlarını səfərbər etmişdilər. Zabitlərdən Həsən Mahmudov, Anar Babayev, gizir Elxan Bünyadov, döyüş növbəsinə cəlb edilmiş istər radio, istər də kabel xətti vasitələrində çalışan şəxsi heyət həmin döyüşlərdə fərqlənmişdilər.

- Aprelin əvvəllərində hərbi əməliyyatların aparıldığı şəraitdə bölmələrimiz yüksək fəallıq göstərdilər, - zabit Həsən Mahmudov deyir. - Əks-hücumda iştirak edən bölmələr arasında qarşılıqlı əlaqənin təşkili həm də rabitəçilərdən asılı idi. Düşmənin atəşi altında bizə həyət bütün istiqamətlərdə rabitəni təmin etdi. Biz bu vəzifənin öhdəsindən layiqincə gəlməyi bacardıq.

Rabitəçilər güllə və mərmi yağışı altında döyüş tapşırıqlarını yerinə yetirmiş, əks-hücum əməliyyatı zamanı rabitə təminatını yüksək səviyyədə təşkil edərək, düşmən üzərində qələbə üçün onlardan asılı olan nə varsa, öhdəsindən gəlmişdilər.

- Aprel döyüşlərində əldə edilmiş qələbə, torpaqlarımızın bir qisminin azad edilməsi rabitəçiləri də çox ruhlandırıb, - zabit Anar Kazımov bildirir. - Bu uğurun əldə edilməsində rabitəçilərin də özünəməxsus töhfəsi olub. Rabitəçilər üzərlərinə düşən vəzifəni yerinə yetirməklə qalib bölmələrimizin gücünə güc qatmış oldular. Atalarımız deyib: "El bir olsa, dağ oynadar yerindən". Bu müvəffəqiyyət şəxsi heyəti daha həvəslə xidmət etməyə ruhlandırır.

### Silah və texnika yeni mövsümə hazırlanır

Plana uyğun olaraq hərbi hissənin şəxsi heyəti texnika və silahların yaz-yay mövsümünə keçidini yerinə yetirirdi. Cihaz və detalların təmizlənməsi, silah və texnikaya, eləcə də rabitə vasitələrinə texniki qulluğun göstərilməsi şəxsi heyətin gördüyü əsas işlərdən idi. Hərbi qulluqçular günün nizam qaydalarına uyğun olaraq bu istiqamətdə də fəaliyyətlərini davam etdirirdilər.

Zabit Anar Kazımovla, həmçinin hərbi hissənin avtomobil parkına baş çəkdik və bölmələrin silah və texnikaya, rabitə vasitələrinə texniki qulluq göstərdiklərinin şahidi olduq. Qaynar iş vaxtında səliqə-sahman göz oxşayırdı.

- Əsas odur ki, rabitəçilər öz üzərlərinə düşən məsuliyyəti yaxşı başa düşür, vəzifələrinə peşəkar münasibət göstərirlər, - bizimlə söhbətində zabit Kazımov bildirdi. - Hərbi kollektivdə işgüzar ab-hava var və bu da həm döyüş hazırlığı tədbirlərini həyata keçirəndə, həm də digər işləri yerinə yetirəndə özünü büruzə verir. Hazırda silah və texnikanın yeni mövsümə hazırlanması da, beləcə, yüksək ovqatla icra olunur.

Parkda əsgərlər maşınlara həvəslə qulluq göstərirdilər. Bölmə komandiri kapitan Seymur Məmmədov da işlərin gedişinə nəzarət edirdi. Texniki qulluq guşəsinin qarşısında əsgərlər avtomobillərin akkumulyatorlarına baxış keçirir, onları təmizləyirdilər.

- Hərbi hissə komandirinin əmrinə müvafiq olaraq, hələ öncədən görülən işlərin planı tərtib edilib, - zabit Seymur Məmmədov deyir. - Həmin plan əsasında bölmələrdə silah və texnikanın yaz-yay mövsümünə keçidini yüksək səviyyədə təşkil etmək üçün nümunəvi məşğələ keçirilib.

Səhər tezdən hərbi hissə komandiri yenə mövsümi işlərin gedişilə maraqlanmış, nizamlama işlərinin sürətləndirilməsilə bağlı bölmə komandirlərinə tapşırıqlar vermişdi.

- Qrafikə uyğun olaraq texnikanı yeni mövsümə hazırlayırıq. Ayrı-ayrı detallar nəzərdən keçirilir, bəziləri təzələri ilə əvəz edilir, - kapitan Məmmədov bildirir. - Məqsəd ondan ibarətdir ki, müəyyən olunmuş vaxtadək bizə həvalə edilmiş avtomobilləri yeni mövsümə yüksək səviyyədə hazırlayaq. Çünki texnikanın sazlığı da döyüş hazırlığının tərkib hissəsidir.

Hərbi hissədə şəxsi heyət tərəfindən döyüş hazırlığı planında nəzərdə tutulmuş bütün tədbirlər ardıcıl həyata keçirilir. Rabitəçilər döyüş və ixtisas hazırlığı məşğələlərində öz peşəkarlıqlarını daha da möhkəmləndirməyə çalışırlar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

# “Dövlətə sədaqət, Vətənə sevgi”

## devizi ilə vətənpərvərlik tədbiri keçirilib

*Ağcabədi rayonundakı hərbi hissələrdən birində "Dövlətə sədaqət, Vətənə sevgi" devizi altında keçirilən vətənpərvərlik tədbirində Müdafiə Nazirliyinin rəsmiləri, Ağcabədi və Laçın rayonları ictimaiyyətinin nümayəndələri, zabitlər, gizirlər və gənc əsgərlər iştirak ediblər.*



Əvvəlcə müasir müstəqil Azərbaycan Respublikasının qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Əməkdar İncəsənət xadimi Abdulla Qurbani Azərbaycanda dövlət quruculuğu tarixindən, müsəlman Şərqində ilk demokratik dövlətin məhz Azərbaycanda yaranmasından, bu yolda xalqımızın apardığı mübarizələrdən ətraflı söhbət açıb.

Qeyd edilib ki, ötən əsrin 90-cı illərində ölkəmizdə gərgin vəziyyət yaranmışdı. Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan dövləti dağılmaq təhlükəsi ilə üzləşəndə ulu öndərimiz Heydər Əliyevin xilaskarlıq missiyası ilə Vətənimiz vətəndaş müharibəsi təhlükəsindən, dövlətimiz isə çevriliş cəhdlərindən xilas edilmişdir. Ən çətin məqamlarda Ümummilli Liderimizin rəhbərliyi altında ordu ilə xalq əsl vətənpərvərlik nümunəsi göstərərək, bir bayraq altında, bir amal uğrunda birləşmişdilər.

Azərbaycan dövlətinin sükanı bu gün etibarlı əldədir. Azərbaycan Ordusu isə dövlətimizin təhlükəsizliyinin qarantıdır. Heç bir qüvvə ordu ilə xalqın monolit birliyini poza bilməz.

Oğlunu və həyat yoldaşını döyüşlərdə itirmiş Dilbər Kərimova, Qarabağ müharibəsinin əlili Ramil Nağıyev, Azərbaycan Dövlət Pedaqoji Universiteti Ağcabədi filialının dosenti Tahir Kərimli, Laçın rayon 37 nömrəli tam orta məktəbinin direktoru Səxavət Məmmədov, Ağcabədi rayon İcra Hakimiyyətinin əməkdaşı Ceyhun Mamedov, zabitlərdən Vüqar Musayev, Samir Səfərov, Namiq Cavadov çıxış edərək gənc əsgərlərə tövsiyə və məsləhətlər verib, onların Vətənin sadiq müdafiəçiləri olacaqlarına əminliklərini bildiriblər.

Gənc əsgərlər mayın 10-da - Silahlı Qüvvələrimizin əbədiyaşar Ali Baş Komandanı Heydər Əliyevin ad günündə Hərbi and içdiklərindən böyük qürur duyduqlarını bildirərək Vətənin sadiq əsgəri olacaqlarını böyük inamla ifadə ediblər.

Qonaqlara və hərbçilərə Müdafiə Nazirliyi adından Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xatirəsinə həsr olunmuş "Çingiz dastanı" kitabı təqdim edilib, "Aprel zəfəri" vətənpərvərlik mahnıları silsiləsindən nümunələr səsləndirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

---



Medallı igidlərimiz

# Vətən üçün, torpaq üçün...

Komandirin əmriylə düşmənin təxribatlarının qarşısını almalıydılar. Çətinliklə də olsa sıldırım qayalıqları keçdilər. Xırda təpəlik başlayırdı...

Döyüş gedirdi... Vətən üçün, torpaq üçün döyüşürdülər. Dan yeri sökülürdü. Düşmən uzaqlaşmağa çalışırdı, döyüşçülərimiz isə onları məhv etməyə...

Silahdaşının yaralandığını hiss etdi. Onu döyüşdən çıxartdı... Yanağında yaş damcıları axırdı, başını dizləri üstünə alaraq astaca "Rahat uyu, qardaş. Düşmənə bir qarış torpaq belə verilməyəcək," - dedi. Yenidən döyüşə qoşulmaq istəyirdi ki, sinəsində güclü ağrı hiss etdi. Bütün qüvvəsini toplayaraq dostuna sarı can atdı. O, şəhid olmuşdu. Çöhrəsində başaçılmaz bir təbəssüm, xəyalında şəhidlik vardı. O anlarda İlisunun insanın ruhunu dincəldən sərin havasını ciyərlərində hiss edirdi. Qapanan gözlərinin qarşısında vaxtilə doymadan gəzib dolaşdığı meşəliklər canlanırdı...

Ehtiyatda olan kiçik çavuş səhra hospitalına çatdırıldıqdan bir-iki saat sonra helikopterlə Baş Klinik Hospitala gətirilir...

Müddətdən artıq həqiqi hərdi xidmət hərbi qulluqçusu kiçik çavuş Ayaz Cumayev 1990-cı ildə Qax rayonunun Şotavar kəndində anadan olub. Müharibə dövründə anadan olan uşaqlar 20 Yanvar şəhidliyinə, Xocalı faciəsinə, Qarabağa, Şuşaya həsrətdən yaranmış nağıllarla, "dava-dava" oyunlarıyla böyüyüblər. Ayaz deyir ki, bu oyunlarda heç kim düşmən olmaq istəmirdi. "Oyun xatirinə növbələşsək də, "düşmən" heç vaxt qalib gəlmirdi". Düşmənin qalib ola biləcəyi onların kövrək düşüncələrində belə mümkünsüz idi; onlar əzəli torpaqlarımızı işğaldan azad etmək hissi ilə böyüyüblər.

Məktəb kitabxanasında işləyən Sədaqət ana həmişə Ayaza qəhrəmanlarımızdan bəhs edən kitablar oxuyardı. Xəyallarında özünü Koroğluya, Babəkə, Cavanşirə bənzədərdi Ayaz. Qəhrəmanlığa doğru addım-addım irəliləyərdi. "İgidlərin sinəsi Vətən üçün sipərdir" - düşünənlərin sırasındaydı Ayaz.

Ayazın uşaqlıqdan ən böyük arzusu hərbçi olmaq idi. Orta məktəbdə oxuyarkən sinif müəllimi gələcəkdə hansı peşəni və nə üçün seçəcəklərinin haqqında inşa yazmağı tapşırmışdı. Ayaz bu tapşırığı böyük həvəslə yerinə yetirmişdi. Arzularını yazmışdı. Vətən sevgisinin sonsuzluğundan, hərbçi olmaq, işğal edilmiş torpaqlarımızı düşməndən azad etmək istəyindən yazmışdı...



Bu gün Şotavar kəndinin də yüzdən çox gənci hərbçi kimi Vətənin keşiyindədi...

Müharibə dövrünün uşaqları yaşından tez böyüyür, müharibə dövründə uşaqlıq yaşanılmır, insan özünü dərk edəndən dəhşətləri, faciələri yaşaya-yaşaya hər gün bir ay, bir il böyüyür sanki. Dağlar qədər əzəmətli, güclü bilir özünü. O gücü, o əzəməti söhbətimizdə Ayazın da gözlərində gördüm, ürək döyüntülərində hiss etdim.

...Həmyerlisi İbiş İbrahimov düşmən təxribatının qarşısının alınması zamanı şəhid olmuşdu. Bunu eşidəndə Ayazın qəlbində qəribə hisslər baş qaldırmışdı: həmyerlimə paxıllığım tuturdu. Bu, mənim həyatımda paxıllıq edib, həsəd apardığım tək bir andır. Vətən uğrunda şəhid olmaq yaşanılan ömrün ən gözəl sonluğudu. Tərxis olunduqdan sonra hərbi formada şəklimi böyütdürdüm. Anamın sual dolu baxışlarına təbəssümlə cavab verdim...

2008-2009-cu illərdə Vətən qarşısında əsgəri xidmətini başa vurub kəndlərinə qayıtdıqdan sonra daxilindən gələn səs ona rahatlıq vermirdi. O səsin hökmüylə yenidən ordu sıralarına qayıtmışdı.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ayaz Cumayevə "Şücaətə görə" medalını təqdim edib... - O mərasimi ömrüm boyu unutmayacam, - deyir qorxubilməz döyüşçü.

Vətən... Bu kəlmə nə qədər də mənalı və dərindir. Bütün sevgilərimizin əvvəli də, sonu da Vətənlə bağlıdır.

Ayazın böyük qardaşı Vasif də hərbçidir. 3 yaşlı oğlu Yusif "Mən də əmim kimi hərbçi olacam, onu yaralayanları öldürəcəm, qisas alacam", - deyir.

Atası Valeh oğlunun sinəsindən yaralandığını görüncə, "Çörəyim sənə halal olsun" - deyib. Bu kəlmələrlə Ayaz bu gün də qürurlanır.

Nişanlı idi. Ayağa qalxdıqdan sonra görüşə tələsdi. Bu görüşdə sevgi dolu baxışlarda bir heyranlıq da vardı... Həm də qəhrəman kimi qarşılanmışdı...

Vətən sevgisi ilahi sevgidir. Vətəni, torpağı qoruya-qoruya şəhidliyi gözünün önünə alan oğullardan biri olan Ayazın mənəvi zənginliyi məni də duyğulandırdı.

**Leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

---

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***16 may 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan da (12 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 122 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində, Berd rayonunun Ayqedzor kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şıxlar, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Veysəlli və Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Döyüş hazırlığı*

# "Aprel zəfəri böyük qələbənin başlanğıcıdır"



*Gözəl bir may səhəridi. Dan yeri yenicə ağarmağa başlayıb. Doğma Vətənimin gözəl guşələrindən biri olan Qarabağda əsrarəngiz təbiətə vurulmamaq mümkün deyil. Səhərlərə məxsus olan həzin mehdən arabir yarpaqlar qımıldanır, tarlalara, çöllərə xalı kimi döşənmiş lətif, yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanır. Quşların səs-səsə verib ötüşməsi də bu mənzərəyə öz çalarını qatır. Nəzərdə tutulan əlahiddə hərbi bölməyə qalxdıqca adam ürək dolusu nəfəs alır. Uzaqdan da olsa ardı-arası kəsilməyən, zəncir kimi bir-birinə hörülmüş, bir-birini qucaqlamış dağları görmək hisslərimə kövrək duyğular qatır.*

Taqım komandiri baş leytenant Elvin Kazımov bir xətt üzrə düzülən əsgərlərə müasir döyüş silahı haqqında məlumat verir: "Bu silah 4 km-ə yaxın məsafədə yerləşən hədəfləri vurmağa qadirdir. Müxtəlif avadanlıqların daxil olduğu orijinal hədəfalma sistemi ilə təchiz edilib. Raket hədəfə müstəqil və ya operatorun komandası ilə istiqamətlənə bilər. İdarə və hədəfalma sisteminin istifadəsi raketin tətbiqinin böyük elastikliyini təmin edir. Belə ki, operator raket buraxıldıqdan sonra hədəfi tapıb zəbt edə və ya raketi uçuş zamanı istiqamətləndirə bilər. Bu zaman üç prinsipdən - "atəş açdım, unutdum", eləcə də daha mürəkkəb "atəş açdım, istiqamətləndirdim" və "atəş açdım, qiymətləndirdim, korrektə etdim" prinsiplərindən istifadə edilir. Bu silahın ən böyük üstünlüyü ondan ibarətdir ki, atəş zamanı tam nəticə əldə edilir. Düşmənin texnika və canlı qüvvəsinin bu silahdan yayınmaq imkanları yox səviyyəsindədir".

- Ölkəmizin son illərdə dinamik inkişafı Silahlı Qüvvələrin büdcəsinin artması və nəticə etibarı ilə ordumuzun gücləndirilməsi ilə müşayiət olunur, - deyə taqım komandiri bizimlə söhbətə başladı. - Son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmlənib. Bu gün qarşıda dayanan əsas vəzifələrdən biri ən son hərbi texnologiyaların orduya cəlb edilməsidir. Hərbi arsenalımızda belə müasir silahın olması dediklərimizin bariz sübutudur. Aprel döyüşləri zamanı bu silah vasitəsilə onlarla düşmən texnikası məhv edilib. Bu da onu sübut etdi ki, Azərbaycanın yüksək döyüş qabiliyyətli, hərtərəfli təchiz olunmuş ordunun formalaşdırılması istiqamətində atılan addımlar öz nəticəsini verməkdədir".

Sonra əsgərlərlə söhbət etmək imkanımız yaranır. 14 ayın əsgəri olan operator Emil Abbasov indiyə qədər qazandıqları hərbi vərdişlərin asan başa gəlmədiyini bildirdi: "Bütün şəxsi heyətimiz hər zaman döyüş hazırlığı dərslərində və döyüş atışlı təlimlərdə ruh yüksəkliyi ilə iştirak edir. Başlıca məqsədimiz üzərimizə düşən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməkdir. Dərslərdə və təlimlərdə öyrəndiklərimiz isə düşmənin layiqli cavabını verməkdə yardımçımız olacaq.

- Vətənimizin qorunması, torpaqlarımızın azad edilməsi yüksək səviyyəli döyüş hazırlığı prosesindən keçir, - deyə Göyçay rayonundan olan əsgər Hüseyn İsmayılov söhbətə qoşulur. - Gərgin zəhmət hesabına qarşıya qoyulan məqsədə nail olmaq mümkündür. Bunun üçün ilboyu döyüş hazırlığı məşğələlərinə, döyüş atışlarına, çöl dərslərinə, təlimlərə qatılırıq. Öyrəndiklərimizin nəticəsində keçənilki aprel uğurlarını təkrarlamaq, yeni-yeni nailiyyətlər qazanmaq arzusundayıq.

Salyandan olan əsgər Turab Həsənov bildirdi ki, aprel döyüşlərinin iştirakçısı və qəhrəmanlarından olan şəxslərin hərbi hissədə qulluq etməsi şəxsi heyət üçün ikiqat fəxrdir: "Azərbaycan əsgərinin şücaəti, şanlı zəfəri sayəsində tarix yazan aprel döyüşlərindən bir il ötməsinə baxmayaraq, bu tarixi qürurla anır, qəhrəman oğullarımızı fərəhlə yad edirik. Sevindirici hal odur ki, həmin döyüşlərdə qəhrəmanlıq göstərən oğullarımızdan bəziləri bu hərbi hissədə xidmət edir. Onlardan öyrəndiklərimizin hesabına xalqımızın səbirsizliklə gözlədiyi növbəti qələbələrin müjdəçiləri olacağıq".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından Şəhriyar Qasımlı, Aslan Hüseynov, əsgərlərdən Mirmüseyib Həsənov, Cavidan Cəlilzadə, Elmar Kərimov, Nurlan Əmirov və başqaları üzərlərinə düşən tapşırıqları hər zaman layiqincə yerinə yetirəcəklərini bildirdilər. Belə oğullarla söhbətləşəndən sonra bir daha əmin olursan ki, aprel zəfəri kimi növbəti uğurlar bizi gözləyir.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Rəsmi Yerevanın "OSA"-nın vurulmasına dair açıqlaması gülüncdür"

*"Yerevanın yaydığı açıqlamaya, ancaq sadəlövh Ermənistan cəmiyyətinin inandırılması mümkündür". Bunu APA-ya ehtiyatda olan polkovnik Şair Ramaldanov Ermənistan silahlı qüvvələrinə məxsus "OSA" zenit-raket kompleksi nəqliyyat-doldurucu maşını, 5 nəfərdən ibarət ekipajın məhv edilməsi ilə bağlı xəbərə Ermənistan tərəfinin reaksiyasını şərh edərkən deyib.*



O bildirib ki, mayın 15-də Azərbaycan Müdafiə Nazirliyi Ermənistanın cəbhə xəttində vəziyyəti yenidən gərginləşdirmək məqsədilə növbəti təxribata əl atması barədə məlumat yayıb.

"Məlumatda deyilirdi ki, mayın 15-də cəbhənin Füzuli-Xocavənd istiqamətində Ermənistan hava hücumundan müdafiə qoşunlarına məxsus "OSA" zenit-raket kompleksi düşmən tərəfindən müdafiənin ön xəttində yeni mövqeyə çıxarılaraq, hava məkanını nəzarətə götürməyə cəhd göstərilib.

Yaranan real təhlükənin və düşmənin aktivliyinin qarşısını almaq məqsədilə düşmənin zenit-raket kompleksi, nəqliyyat-doldurucu maşını sərrast atəşlə tam sıradan çıxarılıb, şəxsi heyəti məhv edilib.

Ermənistan tərəfi isə gözlənildiyi kimi, buna yaxın vaxtda reaksiya verərək guya texnikanın qismən xəsarət aldığı və şəxsi heyət sarıdan itki verməməsi barədə mətbuata açıqlamalar sırımağa başladı. Bu, təbii idi və gözlənilən bir addım oldu. Düşməndən nəsə başqa bir söz gözləmək də düzgün olmazdı", - deyə polkovnik əlavə edib.

Ş.Ramaldanovun fikrincə, xəbəri yayan tərəfin Ermənistan olması əvvəlcədən bunun yalan, iftira olmasına və təşviş içində olan daxili auditoriyanı sakitləşdirmək məqsədilə tirajlanan blef olduğuna dəlalət edir: "Birincisi, ona görə ki, Azərbaycan Müdafiə Nazirliyinin yayımladığı videoya hətta qeyri-peşəkar gözlə nəzər saldıqda zenit-raket kompleksinin işlək vəziyyətdə olduğu, vurulan zərbədən texnikanın yüngül xəsarət alması və 5 nəfərdən ibarət ekipajın sağ qalmasının qeyri-mümkün olduğu açıq-aydın görünür.

İkincisi, zərbədən bir neçə saniyə sonra zenit-raket kompleksi və nəqliyyat-doldurucu maşının arsenalında olan mərmilərin detonasiya nəticəsində güclü partlayışa səbəb olması, yaranan yanğından tüstünün uzun müddət göyə ucalması və kadrlarda əks olunub. Hətta əraziyə yaxın yerlərdən də müşahidə edildiyi görünür.

Bu iki amil - həm endirilən güclü zərbə, həm də güclü partlayış hərbi texnikanın və ekipajın tamamilə məhv ediləcək sıradan çıxarıldığını sübut edir".

Ş.Ramaldanov deyib ki, Yerevan rəsmilərinin texnikanın yüngül xəsarət alması və şəxsi heyətin zərər görməməsi barədə yaydıqları xəbərlər gülüncdür, buna ancaq sadəlövh Ermənistan cəmiyyətinin inandırılması mümkündür. Daha doğrusu, Ermənistan Müdafiə Nazirliyi buna nail olmağa çalışır: "Bir neçə gün əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən "OSA" zenit-raket kompleksi vasitəsilə buraxılan, heç bir zərər vurmadan boş əraziyə düşən mərminin qalıqları da Müdafiə Nazirliyi tərəfindən KİV-ə təqdim edilmişdi.

Ermənistan tərəfi bu addıma qarşı tədbirlər görəcəyi barədə boş-boş hədələr səsləndirməkdə də davam edir. Əminəm ki, düşmənin istənilən addımının qarşısını almağa, layiq olduğu cavabı verməyə və ona sarsıdıcı zərbələr endirməyə Azərbaycan Ordusu qadirdir və bunu hər zaman edəcək".



## Ermənistanın "OSA" zenit-raket kompleksi məhv edilib

Ermənistan cəbhə xəttində vəziyyəti yenidən gərginləşdirmək məqsədilə təxribat xarakterli fəaliyyətini davam etdirir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mayın 15-də cəbhənin Füzuli-Xocavənd istiqamətində Ermənistan hava hücumundan müdafiə qoşunlarına məxsus "OSA" zenit-raket kompleksi hərbi qulluqçuları tərəfindən müdafiənin ön xəttində yeni mövqeyə çıxarılaraq hava məkanını nəzarətə götürməyə cəhd göstərilib.

Azərbaycanın uçuş aparatlarına yaranan real təhlükənin və düşmənin aktivliyinin qarşısını almaq məqsədilə Ermənistanın "OSA" zenit-raket kompleksi və nəqliyyat-doldurucu maşını atəşlə tam sıradan çıxarılıb, şəxsi heyəti məhv edilib.

Məlumat üçün bildiririk ki, ekipajı 5 nəfərdən ibarət olan "OSA" zenit-raket kompleksi hava hədəflərini 45 kilometr radiusda aşkar edərək izləməyə götürməyə və 9 kilometr uzaqlıqda məhv etməyə qadirdir.

# “Vətən mənə oğul desə, nə dərdim...”

## Hərbi hissələrdə Məmməd Araz poeziya günü keçirilib

*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Xalq şairi Məmməd Arazın poeziyası gənclərin vətənpərvərlik tərbiyəsində, onlara yüksək əxlaqi-mənəvi, iradi keyfiyyətlərin aşılanmasında həmişə təsirli vasitə olub və bu gün də öz dəyərini qoruyub saxlamaqdadır. Unudulmaz şairimiz ordumuzun uğurlarına hamıdan çox sevinər, Azərbaycan əsgərini sonsuz məhəbbətlə tərənnüm edər, həmişə ondan qələbə müjdələri eşitməyi arzulayar, onu Vətənə sədaqətli oğul, mübariz əsgər kimi görmək istərdi.*






Məmməd Araz ordumuzun yaxın dostu, səngərdaşı idi. Səhhətində problemlər yaşanmasına baxmayaraq, dəfələrlə cəbhə bölgələrinə səfər edər, döyüşçülərlə görüşər, soyuq səngərlər Məmməd Araz şeirinin hərarəti ilə qızınar, Azərbaycan əsgərini qələbələrə ruhlandırardı. Hələ neçə illər öncə cəbhə bölgələrindən qayıdarkən şair yazmışdı: "Vətən əsgərlərinin gözlərindəki parıltını, sevinci görəndə, özümün xəstəliyimi tamam unutdum. Sən, əsgər oğul, "Vətən mənə oğul desə, nə dərdim" misralarını təkrarən oxudun. Vətən əsgəri adını şərəflə daşımaq hər igid əsgərin ən ülvi arzusu olmalıdır. Sən dərədə sel, dağda qartal oğulsan. Mən sizə arxalanıb bu sözləri demişdim. Yerişinə, yürüşünə baxdım, bu qərara gəldim, səngərlərə endim, bu qərara gəldim. Sən qara qüvvələr qarşısında həmişə hazır vəziyyətdəsən, yalnız əmr gözləyirsən. Mən sizdən ayrılarkən səfər yoldaşlarımla geriyə əsgər vüqarı, əsgər əzmi, əsgər əyilməzliyi aparırdıq...".

Məmməd Araz cismən həyatda olmasa da, onun çoxşaxəli ədəbi yaradıcılığı, xüsusilə vətənpərvərlik poeziyası bu gün də gənclərimizin öz xalqına, Vətəninə, dövlətinə sədaqətlə xidmət etməsi istiqamətində aktuallığını itirməyib. Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, onların milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsi işində şəxsi heyətlə iş üzrə zabitlər böyük Xalq şairinin yaradıcılığına tez-tez müraciət edirlər.

Müdafiə Nazirliyinin rəhbərliyi, Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə Şəmkir hərbi birliyinin hərbi hissələrində "Vətən mənə oğul desə, nə dərdim" devizi altında keçirilən Məmməd Araz poeziya günü şəxsi heyətin həyatında yaddaqalan və unudulmaz günlərdən birinə çevrilib.

"N" hərbi hissəsində gənc əsgərlərlə görüşən ədəbiyyat, incəsənət xadimləri, veteranlar Məmməd Arazla bağlı xatirələrini bölüşüb, onun poeziyasına müraciət edib, əsgərləri maraqlandıran suallara cavablandırıblar.

Əməkdar İncəsənət xadimi Abdulla Qurbani şairlə dostluğundan, onunla birlikdə dəfələrlə cəbhə bölgələrinə səfər etdiklərindən söhbət açıb, Məmməd Araz poeziyasında vətənpərvərlik mövzusu ətrafında geniş məruzə edib. Şairin "Əsgər andı", "Vətən desin", "Sınma", "Təsəlli", "Mürgüləmə" və başqa şeirlərindən nümunələr çəkib. Azərbaycan əsgərinə şairin ünvanladığı şeir şəxsi heyət tərəfindən alqışlarla qarşılanıb:

*Son ataş də, son zərbə də*
*səninkidir,*
*Oğul əsgər, əsgər oğul -*
*mərd igiddir.*
*Mərd ölsə də, mərdlik ölmür,*
*hünər ölmür;*
*Hünər ölmür, mərdlik ölmür*
*- əsgər ölmür...*

Respublikanın Xalq artisti Məmmədəli Balayev çıxışına Məmməd Arazın "Nə yatmısan, qoca vulkan, səninləyəm!" misrası ilə başlanan şeiri ilə giriş verib. Vətən əsgərlərini Azərbaycanın ərazi bütövlüyünü təmin etmək naminə hər an Ali Baş Komandanın əmrlərinə hazır olmağa səsləyib. Xalq artistinin qiraət etdiyi şeirlər bir neçə gün öncə hərbi and içən ordu gənclərini daha da coşdurub. 76 yaşlı sənətkar əsgər oğullara üz tutaraq deyib: "Xalqımızın güvəndiyi, arxalandığı igid nəvələrim, mən Məmməd Arazdan şeirlər söylədim, siz isə dinlədiniz. Gələcək xidmət yolunuzu indi özünüz seçin. Yadda saxlayın ki, Vətən hər kəsə oğul demir. Vətən o kəslərə oğul deyəcəkdir ki, o, Azərbaycan deyiləndə ayağa dursun, mamır olub qayalarda bitsin, Vətənin daşı olsun, öz əsgəri borcunu Vətən qarşısında şərəflə, vicdanla yerinə yetirsin, Vətən uğrunda canını, qanını belə əsirgəməsin. Məmməd Arazın bu misrası nəinki ordu gənclərinin, ümumiyyətlə, bütün Azərbaycan gəncliyinin inam simvolu olmalıdır: Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı!".

Tanınmış şair-jurnalist İnqilab İsaq, şair Oqtay Abdulla Məmməd Araz poeziyasının bəşəriliyindən, dünyəviliyindən, müasirliyindən və hər bir misrasının vətənpərvərliklə yoğrulduğundan bəhs edib, əsgərləri bu poeziyadan bəhrələnməyə, ilham almağa, həmçinin şairin arzu etdiyi kimi sədaqətli, iradəli, dözümlü, mübariz Vətən əsgəri səviyyəsinə yüksəlməyə çağırıb və yeni şeirlərini oxuyublar.



Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası Gəncə şəhər təşkilatının sədri Yusif Məmmədov, Böyük Vətən müharibəsi veteranı Tofiq Hüseynov, Qarabağ döyüşlərində göstərdiyi igidliyə görə "Azərbaycan Bayrağı" ordeni, arxa cəbhədəki xidmətlərinə görə isə "Tərəqqi" medalı ilə təltif olunmuş veteran döyüşçü Alim Əliyev çıxışlarında şeirin, poeziyanın da döyüşdə kəsərli silah olduğunu bildiriblər. Qeyd olunub ki, xalq qəhrəmanları bir əlində qılınc, bir əlində saz, dillərində isə Vətən ruhlu şeirlərlə döyüş meydanlarına atılmış, düşmən üzərində qələbə qazanmışlar.

Gənclik həvəsi ilə yaşayan 96 yaşlı müharibə veteranı Tofiq Hüseynov Böyük Vətən müharibəsi illərində Xalq şairi Səməd Vurğunla döyüş meydanında görüşdüyünü, 1994-cü ildə isə Gəncə hərbi hospitalında yaralılara baş çəkməyə gələn Məmməd Arazla tanış olduğunu, şair sözünün döyüşçülərə necə ruh verdiyini yada salıb.

Həqiqi hərbi xidmətini şərəflə başa vuran və hazırda Gəncə Dövlət Pedaqoji Universitetində magistr pilləsində təhsilini davam etdirən istedadlı və ictimaiyyətçi gənc Elmir Bağırov və gənc şairə Samirə Səmanın çıxışları da marağla qarşılanıb.

Məmməd Arazın

*"Bu gün gərək hər anımız*
*"Vətən!" - desin,*
*Qılıncımız, qalxanımız*
*"Vətən!" - desin...*
*Ölənlərin əvəzinə, qalanımız*
*"Vətən!" - desin!*

misraları ilə poeziya gününün ilk tədbiri başa çatıb.

* * *

"Vətən mənə oğul desə, nə dərdim" devizi altında keçirilən Məmməd Araz poeziya günü Daşkəsən rayonunda, dağlar qoynunda davam edib.

Yaşıl talaya toplaşan Vətən müdafiəçiləri qonaqlara dağ çiçəkləri və bulaq suyu təqdim ediblər. Hərbi birlik komandirinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Rasim Manafov xalqımızın şair oğlu, təbiət vurğunu Məmməd Arazın xatirəsinə həsr olunmuş poeziya gününün iştirakçılarını qarşılamaqdan böyük qürur duyduğunu, bu gün də şeirin, sənətin əsgərlərimizə yeni ruh, yeni qüvvə verəcəyinə əminliyini bildirib.

*Bu dağlara səni deyib*
*gəlmişik,*
*Duman, çiskin, çəni deyib*
*gəlmişik,*
*Gədiklərin qəddin əyib*
*gəlmişik*
*Daşkəsənin qartalı!*

- deyə Əməkdar İncəsənət xadimi A.Qurbani Vətən müdafiəçilərini salamlayaraq qonaqları şəxsi heyətə təqdim edib.

Əsgərlər bu diyardan pərvazlanan şair İnqilab İsaqın, Oqtay Abdullanın, Saleh Qurbanovun çıxışlarını alqışlarla qarşılayıblar. Həm Məmməd Arazın, həm də yerli şairlərin şeirləri dağlarda əks-səda verib.

Xalq artisti Məmmədəli Balayev Dədə Qorqud qiyafəsində olmasa da, əlinə qopuz götürməsə də Oğuz elinin ağsaqqalı Dədə Qorqudun deyimləri ilə igidləri, ərənləri alqışlayıb:

*Uca qara dağlarınız*
*yıxılmasın!*
*Qılınclarınız kortalmasın!*
*Dava günü bədöy atlar*
*büdrəməsin!*
*Qələbə doyumunuz olsun!*

Gün o gün olsun ki, Lələtəpədə, Talış zirvəsində dalğalanan bayrağımız Xankəndidə, Şuşada, Laçında və işğal altında olan digər əzəli və əbədi torpaqlarımızda dalğalansın!..

Daşkəsən müdafiəçiləri qonaqları əmin ediblər ki, Vətənin onlara oğul deməsi üçün bundan sonra da Vətənə, dövlətə sədaqətlə xidmət edəcək, göstərilən etimadı nümunəvi xidmətləri ilə doğruldacaq, Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olacaqlar.

Həmin gün hərbi birliyin bütün birləşmə və hissələrində Məmməd Araz poeziya günü çərçivəsində silsilə tədbirlər həyata keçirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** 15 İyun - Milli Qurtuluş Günüdür. Müstəqillik tariximizin mühüm mərhələsi.

**Suallar:**
**1. 15 İyun - Milli Qurtuluş Günüdür.**
**2. Müstəqillik tariximizin mühüm mərhələsi.**

### *15 İyun - Milli Qurtuluş Günüdür*

1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə hakimiyyət böhranı yarandı. İctimai həyatın bütün sahələrində xaos, hərc-mərclik baş alıb gedirdi. Orduda da vəziyyət ağırlaşır, fərarilik artırdı. Erməni təcavüzü gündən-günə güclənirdi. Azərbaycanda rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə gedirdi. 1992-ci il mayın 14-də hakimiyyəti ələ keçirən Xalq Cəbhəsi ilk gündən özünün qeyri-sağlam fəaliyyəti ilə ölkəni idarə edə bilməyəcəyini göstərdi. 1993-cü ilin yayında isə Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yarandı.

Vətənin belə ağır günündə xalq Azərbaycanın görkəmli oğlu ümummilli lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi və qısa zamanda vətəndaş müharibəsinin qarşısını ala bildi.

1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranıb, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanıb. Ulu Öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılıb, digər tərəfdən atəşkəsə nail olmaq üçün bütün siyasi-diplomatik vasitələr işə salınıb və bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunub.

1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Ümummilli lider Heydər Əliyevin son dərəcə gərgin fəaliyyəti nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdu ki, bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanmışdır. Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdı ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiya təşkil edirdi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu. Dahi rəhbərin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olub. Onun fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olub.

Ümummilli lider Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratdı.

### *Müstəqillik tariximizin mühüm mərhələsi*

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlayıb.

Təcrübəli dövlət rəhbərinin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli idi.

Ümummilli lider Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail oldu. Xarici siyasətin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edirdi. İslahat siyasəti əsasında isə, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı.

Ümummilli lider Heydər Əliyev 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərirdi. O, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmışdı.

Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi müdrik rəhbərin son dərəcə gərgin və səmərəli fəaliyyətinin bəhrəsi idi. Onun böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılıb və onların həyata keçirilməsinə başlanıb. Bir sıra dünya miqyaslı iqtisadi proqramların həyata keçirilməsində Azərbaycan aparıcı rol oynayıb. Böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olub.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrində yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən - müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərib, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul edib.

Ümummilli lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi islahatlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdi. Bir sözlə, hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var.

Hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyi olan Heydər Əliyev, eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb.

Dahi rəhbər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi fəaliyyətə başladığı ilk günlərdən ordu quruculuğu işini elmi əsaslarla, planlı surətdə həyata keçirməyə başladı. 1993-cü il noyabrın 1-də Azərbaycan Respublikasının Müdafiə Şurası yaradıldı. 1993-cü il noyabrın 2-də Prezident Heydər Əliyev radio və televiziya ilə xalqa müraciət etdi. Ümummilli Liderimizin bu tarixi müraciətindən sonrakı dövr ordu quruculuğunda əsas mərhələnin başlanğıcıdır.

1993-cü il dekabrın 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan silahlı qüvvələri son bir neçə ay ərzində ilk dəfə olaraq Azərbaycan Silahlı Qüvvələrinin hissələrinin güclü müqavimətinə rast gələrək uğursuzluğa düçar oldu. 1993-cü il dekabrın 28-də Ermənistan qoşunlarının Goranboy, Tərtər və Ağdam istiqamətlərində də hücumlarının qarşısı alındı. Bu istiqamətlərdə düşmənin xeyli canlı qüvvəsi, texnikası məhv edildi və işğalçılar geri çəkilməyə məcbur oldular. Füzuli-Beyləqan istiqamətində döyüşçülərimiz 40 km-ə qədər irəliləyərək düşməni darmadağın etdilər.

Həmin günlərdə Ulu Öndərin tez-tez ön cəbhəyə getməsi, döyüşən Azərbaycan əsgərləri ilə yanaşı, səngərlərdə olması, qayğı və ehtiyacları ilə maraqlanması, döyüşdə fərqlənənləri yerindəcə mükafatlandırması onlara yeni ruh, yeni qüvvə verirdi. Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan Ordusunun əldə etdiyi uğurları və ordunun gücünü hiss edən düşmən 1994-cü il mayın 12-də atəşkəsi imzalamağa məcbur oldu.

1993-cü ilin dekabr - 1994-cü ilin yanvar-may aylarında Azərbaycan Silahlı Qüvvələrinin döyüşlərdə qazandığı uğurlar bir daha sübut etdi ki, vahid dövlət və ordu quruculuğu sahəsində aparılan siyasət əsaslandırılmış və ardıcıl olarsa, Silahlı Qüvvələrin təşkili və gücləndirilməsində yüksək nailiyyətlər əldə etmək olar.

Ümummilli lider Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində Silahlı Qüvvələrin müasir texnika və silahlarla təchiz olunması, ordunun zabit kadrları ilə komplektləşdirilməsi, hərbi hissələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi intizamın möhkəmləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə olunmuşdu.

Bu gün səmərəli hərbi təhsil sistemi yaradılmış, hərbi kadr və mütəxəssislərin hazırlıq proqramları, hərbi təhsilin pillələri və onları həyata keçirən hərbi tədris müəssisələrinin fəaliyyət istiqamətləri müəyyən edilmişdir.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş ümummilli lider Heydər Əliyevin dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

*Düşüncələr*

# “Çingiz sıramızdadı”



...Sizinlə bu günlərdə xidmət etdiyiniz postda görüşdük. Ayrılarkən dediklərinizi unutmamışam: "...Çingiz sıramızdadı...".

Azərbaycanın əbədiyyət əsgəri sizdən sonra xidmət edəcək əsgərlərin də sırasında olacaq, dövlət sərhədlərimiz Vətənin istəyiycə qorunacaq, "Vətənin əsən yeli, daşan seli, açan gülü ilə Vətənləşən" əsgərlərimiz! Ay sizin kirpiklərinizdə gecələyirsə, Günəş sizin gözlərinizdən doğursa, məmləkətimiz dünyaya sizin gözlərinizlə baxırsa, bulaqlar ruhunuzun laylası olsun deyə axırsa, şimşək sizə görə çaxırsa, qələbə günü uzaqda deyil.

Siz "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır!" - inamıyla döyüş növbəsindəsiniz.

Orada Çingiz Qurbanovun atasının dediklərini mən də eşitdim, siz də eşitdiniz. “Oğlumun əvəzindən xidmət etmək istərdim!” Ataların şəhid oğullarını əvəz etməsinə ehtiyac yoxdu - siz varsınız. Aprel zəfərini qazananların davamçılarısınız! Belə bir mövqedə, belə bir postda xidmət edirsiniz. Dediyiniz kəlmələr ürəyimi telləndirdi: Qələbə qazanılacaq. Kaş o qələbəni əsgər kimi yaşayaq...

Uzaq tarixi xatırlayaq: sərhədlərimizdə yağı boyu görünəndə, sərhədlərimizə yağı nəfəsi dəyəndə kəhər atlarımız kişnəyərdi, qılınclar sıyrılardı. O çağlarda döyüşçü qılınca, qılınc Vətənə güvənərdi. Bu güvənc ilahi güvənciydi...

Ovxarlı qılıncların parıltısı yağıların gözlərini qamaşdırardı. Əsən yellər, daşan sellər səmtini dəyişərdi. Yağılaşanların gözlərini tökən, qollarını üzən, başını kəsən qılınclar tarix yazardı. Yazılan tarixlər daş kitabələrdə yaşadılardı. "Qəhrəmanı", "Cəngi" havaları o illərdə yaranıb bəlkə? Bu havaları ruhumuza hopduran gözəlim sözlərin ilahi düzümünün yaşı o illərdənmi başlayır, görəsən?

Atları kişnəməyən, qılıncı kəsərdən düşən xalqlar tarixdən silindi...

Yaxın tarixi xatırlayaq: qılınc getdi, ərənlik bitmədi. Döyüş-döyüş dövlət quruldu, dövlətçilik döyüş-döyüş qorundu, qorunan dövlət şəhid-şəhid yaşadıldı. Söz saza ruh əvəziydi, saz qılınca, qılınc Vətənə. Sazın kəsəri sözüydü, qılıncın kəsəri saz. Qılıncın kəsəri Vətənin kəsəriydi...

Qılınc döyüşçüdən, döyüşçü Vətəndən güc alırdı.

Zamanın siyasət yelləri hərdən tərsinə əssə də, hərdən dövlətin tarixə bağlılıq tellərindən kəssə də, dövlətçiliyimiz qorundu. Məqamında "hər daşı alov dilli oxa dönən" (M.Araz) Azərbaycan tarixdə qaldı, tarixə yük olmadı, tarixə yük olmaq istəyənləri taxtından saldı; zaman vaxta da hökm elədi, "Mənəm!" - deyən baxta da, qondarılan taxta da.

1828-də bir dəli rüzgar əsdi...

Xalq 1918-də rüzgarın qanadlarını qırdı...

1920-də ayrı biçim rüzgar əsdi...

1991-də Azərbaycan "Mən varam!" - dedi...

Həmin illərdə nədən başladığı - bəlli, kimə (kimlərə) güvəndiyi - bəlli. Ermənilik tərpəndi, ermənilikle qoşa işğal qımıldandı. Torpaqlarımızın 20 faizi işğal olundu...

O torpaqları siz azad edəcəksiniz! Onda Çingizlərin ruhu sizə alqışçı olacaq!

2016-nın aprelində erməniliyin bir gözü ovuldu, bir qolu kəsildi. Ermənilik Azərbaycan əsgərinin qüdrətini gördü, cəsarətini, ruhunun çılğınlığını gördü. Dərk etdi ki, torpaqsevərlik işğalçılığı diz çökdürəcək. Min illər, yüz illər əvvəl qılıncın dediyini güllələr deyəcək. Mübarizləşin, Muradlaşın, Samidləşin, Çingizləşin,... işğalda qalan bütün təpələri Lələtəpələşdirin, Bayraqtəpələşdirin. Murovun o üzünə bu üzünün rəngini çəkin, ...

Böyük Qələbə sizin də boynunuzun borcudu, bizim də!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Ordu və cəmiyyət*

# Vətəni göz bəbəyi kimi qoruyun

*Qəbələnin Qum qəsəbəsindənəm. Müharibənin nə olduğunu mən də yaxşı dərk edirəm. Mən də könüllülərdən olmuşam, Füzuli rayon yerli müdafiə tunun tərkibində döyüşmüşəm. Nə vaxtsa eşitdiyim bir fikir mənim də düşüncələrimə hopub. "Vətəni sevmək azdı, məqamında şəhid olmağı da bacarmalısan". Oğlum Xəyalı da bu ruhda böyütmüşəm.*



Aprel döyüşlərindən, ordumuzun qələbəsindən sonra Xəyal da əksər həmyaşıdları kimi hərbi xidmətə gedəcəyi günün intizarındaydı. Qonşulardan eşitdikləri, kitablardan, qəzetlərdən oxuduqları, televiziya verilişlərində gördükləri ona da təsir edirdi. Samid İmanovun, Murad Mirzəyevin, eləcə də digər zabit və əsgərlərimizin qəhrəmanlığından o da qürurlanırdı. Qürurlanırdı ki, belə zabitləri, belə əsgərləri olan bir orduda xidmət edəcək.

Həmin gün oğlum da Hərbi and içdi. Onun da digər gənc əsgərlər kimi Hərbi andın tələblərinə, hərbi nizamnamələrə ciddi əməl edəcəyinə inanıram. İnanıram ki, nümunəvi xidməti ilə bizə başucalığı gətirəcək.

Son vaxtlar Silahlı Qüvvələrimizdə həyata keçirilən islahatlar, ordumuzun silah-sursatla təchiz olunması, əsgərlərin məişət şəraitinin yaxşılaşdırılması cəmiyyətdə böyük ruh yüksəkliyi yaradıb. Bu ruh yüksəkliyini aprel döyüşlərində qazanılan qələbə daha da coşdurub. İnanırıq ki, sülh danışıqları baş tutmasa, ordumuz torpaqlarımızı işğaldan döyüşlə azad edəcək. Çox arzulayardım ki, o döyüşlərdə bu gün and içən gənclər də iştirak etsin. Bu gün əsgər atası adıyla qürurlandığım kimi, qalib əsgər atası adıyla da qürurlanım...

Andiçmə mərasimi Ulu Öndərimizin anadan olmasının 94-cü ildönümü gününə təsadüf etdi. Belə bir gündə Hərbi and içən gənc, təbii ki, Vətənin müqəddəsliyini daha dərindən dərk edəcək, komandirlərinin, zabitlərin bütün əmr və göstərişlərini məsuliyyətlə, həm də vaxtında yerinə yetirəcək. Heç zaman unutmaram: oğlum Xəyal Ulu Öndərin "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam" fikrini tez-tez təkrarlayar, bu kəlamla özü də qürurlanardı...

Mən əsgər atasıyam! - bu qüruru yaşayan ataların adından bütün gənc əsgərlərə deyirəm: Vətəni göz bəbəyi kimi qoruyun!..

**İlqar QULİYEV,**
**əsgər atası**

# Xəbərlər:

## hadisələr, faktlar

### Yaponiyanın “İzuma” esminesi Sinqapur sahillərinə yan alıb



Yaponiya dəniz özünümüdafiə qüvvələrinə məxsus "İzuma" esminesi Sinqapur limanında media nümayəndələrinə təqdim edilib. Bu, esminesin əcnəbi limanına ilk gəlişidir.

"İzuma" Sinqapur sahillərinə bu ayın əvvəllərində Koreya yarımadasında müşahidə olunan gərginliyə cavab olaraq, Yaponiya sahillərinə yaxınlaşan ABŞ dəniz qüvvələrinin gəmilərini müşahidə etdikdən sonra yan alıb.

Yaponiya esminesi Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası üzvlərinə məxsus gəmilərin iştirakı ilə keçiriləcək çoxtərəfli təlimlərdə iştirak edəcək.

### Misirdə arxeoloji tədqiqatlar zamanı 18 mumiya aşkarlanıb



Tuna əl-Gabal kəndi yaxınlığında tapılan məzarlıqda yerin 8 metr dərinliyində aşkar edilən mumiyaların yanında əhəng daşı, heyvan tabutları və papirus səhifələri də olub.

Hələlik, mumiyaların tarixi dəqiqləşdirilməyib. Lakin alimlər onların tarixinin eramızdan əvvəl 332-ci ildə Misirin Böyük İsgəndər tərəfindən fəthindən əvvələ gedib çıxdığını deyirlər.

### İranda güclü zəlzələ nəticəsində azı 3 nəfər ölüb, 200-dən çox insan xəsarət alıb



İran-Türkmənistan sərhədi yaxınlığında mayın 14-nə keçən gecə baş verən güclü zəlzələ nəticəsində azı 3 nəfər ölüb, 200-dən çox insan xəsarət alıb.

Yeraltı təkanlar nəticəsində elektrik enerjisi, su və qazın verilişində problemlər yaranıb, rabitə əlaqəsi pozulub. Hadisə yerində həkimlər və xilasedici briqadalar çalışırlar.

### Moskva metrosunun ildönümü ilə əlaqədar qatarların paradı və sərgisi keçirilib



Mayın 13-də Moskvada metropolitenin ildönümü ilə əlaqədar qatarların paradı keçirilib.

Bu cür parad bu il üçüncü dəfə keçiriləcək. Paytaxt metropoliteninin rəisi Dmitri Peqovun sözlərinə görə, bu tədbirlər sərnişinlərə Moskva metropoliteninin bütün səyyar tərkibini görməyə imkan verir. Bu gün, həmçinin metropolitenin təsərrüfat qatarlarının və retro-vaqonların ikigünlük sərgisi açılıb.

### Şimali Koreya ballistik raket sınağı keçirib



Cənubi Koreya silahlı qüvvələri qərargah rəislərinin birləşmiş komitəsi bildirib ki, raket Şimali Koreyanın şimal-qərbində yerləşən Pxyonan-pukto əyalətindəki Kusonun yaxınlığındakı nöqtədən yerli vaxtla səhər saat 5:30 dəqiqədə şərq istiqamətində buraxılıb. Məlumatda qeyd edilir ki, 700 kilometrdən çox uçan raket Yapon dənizinə düşüb.

Bu, mayın 10-da Cənubi Koreyanın yeni prezidenti Mun Ceinin öz vəzifələrinin icrasına başlamasından sonra həyata keçirilən ilk raket buraxılışıdır. Mayın 14-də səhər Yaponiya Nazirlər Kabinetinin baş katibi Yoşihide Suqa jurnalistlər üçün brifinqdə deyib ki, raket 30 dəqiqə ərzində 800 kilometrə yaxın məsafə qət edərək, Koreya yarımadasından 400 kilometr şərqdə Yapon dənizinə düşüb.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

BAKU 2017
4th Islamic Solidarity Games
12 – 22 May 2017

*Bakı-2017 IV İslam Həmrəyliyi Oyunları, təntənəli açılış mərasimindən sonra paytaxtımızın möhtəşəm salonlarında müxtəlif idman növləri üzrə keçirilən yarışlarla davam etməkdədir. Azərbaycanın Birinci vitse-prezidenti, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın açılış mərasimində söylədiyi kimi, Oyunlar Azərbaycanın dinamik inkişafında yeni parlaq səhifədir və beynəlxalq idman ictimaiyyəti üçün növbəti tarixi hadisədir.*

# İdmançılarımız uğurla çıxış edirlər

Azərbaycanın iki il öncə birinci Avropa Oyunları çərçivəsində bütün Avropa qitəsini bir araya gətirərək tarix yazdığını vurğulayan Birinci vitse-prezident deyib: "İndi isə biz dörd qitənin İslam dünyasının insanlarını Bakıda - IV İslam Həmrəyliyi Oyunlarında birləşdiririk".

Qeyd edək ki, İslamiadanın təntənəli açılış mərasimi dörd qitəni əhatə edən 58 ölkədə yayımlanıb.

İslam təkcə milyonları birləşdirən din deyil, həm də böyük mədəniyyət deməkdir. Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində açılmış "İslam dünyasının musiqi alətləri" sərgisi bu baxımdan maraq doğurur.

AZƏRTAC xəbər verir ki, IV İslam Həmrəyliyi Oyunlarına həsr edilmiş sərgidə Azərbaycanın, eləcə də İslam dünyasının xalq musiqi alətləri nümayiş olunub.

Həmçinin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, 4 idman növünü özündə əks etdirən poçt markaları artıq dövriyyəyə buraxılıb. Markaların üzərində tennis, gimnastika, boks və futbol idman növləri əks olunub.

Oyunlara mayın 8-də futbol yarışları ilə start verilib və Azərbaycan komandası "A" qrupunda mübarizə aparır. Ümumiyyətlə, Azərbaycan idmançıları yarışlara yetərincə uğurla başlayıblar. Oyunlarda 335 idmançı ilə təmsil olunan Azərbaycan yığması yarışlara salınmış bütün idman növlərində mübarizə aparır.

"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının ilk qızıl medalını mayın 13-də kişilər arasında atıcılıq yarışında 10 metr məsafədən pnevmatik tüfənglə atəş açma üzrə qalib gələn Türkiyə idmançısı Akgün Ömər qazanıb. Türkiyə təmsilçisi yarışda 249,8 xalla qızıl medala sahib olub.

Mayın 13-də Azərbaycan yığma komandası "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında ilk qızıl medalını qazanıb. Bu medalı millimizin hesabına atıcılıq yarışında mübarizə aparan Ruslan Lunyov yazdırıb. O, kişilər arasında 25 metr məsafədən tapança ilə atəş açmaq yarışında hamıdan dəqiq olub - (581,25 xal). Yeri gəlmişkən, Ruslan yarışlarda 4 qızıl medal qazanıb. O, kişilər arasında 25 metrdən tapança ilə sürətli atəşaçma, 25 metr məsafədən standart və pnevmatik tapançadan atəşaçma yarışında çempion olub.

İslam Həmrəyliyi Oyunlarında cüdoçuların yarışında Azərbaycanın aktivinə daha bir qızıl medal yazılıb. Cüdoçu Orxan Səfərov IV İslam Həmrəyliyi Oyunlarının çempionu olub.

Ümumiyyətlə, uğurla çıxış edən cüdoçularımızdan Nicat Şıxəlizadə (66 kq), Hidayət Heydərov (73 kq), Məhəmmədəli Mehdiyev (90 kq) və Elxan Məmmədov (100 kq), qadınlardan Erdenebat Bazarraqça (48 kq) İslamiadanın qızıl medalını qazanblar. Çempion idmançılarımızın şərəfinə Azərbaycanın Dövlət himni səsləndirilib, bayrağımız qaldırılıb.

Komanda yarışlarında Azərbaycanın kişilərdən ibarət millisi yarışı qızıl, qadın yığmamız isə gümüş medallarla başa vurublar.

Azərbaycan karateçiləri də "Bakı-2017"-də uğurla çıxış ediblər. Karatenin kumite yarışında 61 kiloqram çəki dərəcəsində mübarizə aparan Fəridə Abiyeva finalda iranlı Rozita Əlipurkaşkalesadı 3:0 hesabı ilə məğlub edərək karateçilərimizin ilk qızıl medalının sahibi olub.

75 kiloqram çəki dərəcəsində mübarizə aparan Rəfael Ağayev finalda Pakistan təmsilçisi Qulam Abbası 4:0 hesabı ilə məğlub edərək Oyunların çempionu olub. Kumite yarışlarında mübarizə aparan Ayxan Mamayev, Roman Heydərov da finalda rəqiblərinə qalib gələrək qızıl medal qazanıblar. 68 kiloqramadək çəki dərəcəsində qadınların mübarizəsində Azərbaycan idmançısı İrina Zaretska da qızıl medala yiyələnib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri final qarşılaşmasına tamaşa ediblər. Qaliblərə medalları dövlətimizin başçısı İlham Əliyev təqdim edib.

Milli Gimnastika Arenasında Azərbaycanın qadın idman gimnastları komanda hesabında IV İslam Həmrəyliyi Oyunlarının çempionu olublar. Qızıl medalı Azərbaycana Yuliya İnşina, Yekaterina Tişkova, Marina Nekrasova qazandırıblar. Halqa ilə hərəkətlər üzrə fərdi yarışlarda 17.600 xal toplayan M.Durunda IV İslam Həmrəyliyi Oyunlarında ikinci dəfə çempion olub. Digər idmançımız Jalə Piriyeva topla hərəkətlər üzrə fərdi yarışlarda bütün rəqiblərini qabaqlayaraq qızıl medala layiq görülüb. Sərbəst hərəkətlərdə qızıl medala 13,100 xalla təmsilçimiz Yuliya İnşina layiq görülüb.



Azərbaycan gimnastları ümumi hesabda yeddi medal qazanıblar. Belə ki, Marina Durundanın hesabında iki qızıl, bir gümüş və bir bürünc medal var. Jalə Piriyeva isə bir qızıl, bir gümüş və bir bürünc medala sahib olub.

Kişilərdən ibarət komandamız isə gümüş medala sahib olub. Azərbaycanı təmsil edən Murad Ağarzayev, Timur Bayramov, Talas Bence komandamıza 161.700 xal qazandırıblar. Yarışda Türkiyə 163.450 xalla birinci, İran isə 152.150 xalla üçüncü yeri tutub.

Sərbəst hərəkətlərdə Murad Ağarzayev 14,400 xalla birinci yeri tutub. Turnikdə hərəkətlərdə gimnastımız Talas Bence 14,000 xal toplayaraq qızıl medala sahib olub. Gimnastika atı üzrə hərəkətlərdə də Talas Bence 14,250 xal toplayaraq millimizin aktivinə növbəti qızıl medalı yazdırıb.

Azərbaycan atletləri İslamiadanın idman gimnastikası yarışlarında 12 medal (5 qızıl, 5 gümüş və 2 bürünc) qazanıblar. Bədii gimnastika yarışlarında isə Azərbaycan idmançıları milli komandamızın aktivinə 8 medal (4 qızıl, 2 gümüş, 2 bürünc) əlavə ediblər. Bununla da Azərbaycan gimnastları IV İslam Həmrəyliyi Oyunlarının tarixinə adlarını 20 medalla (9 qızıl, 7 gümüş və 4 bürünc) yazdırıblar.

Bakı Su İdman Sarayında keçirilən üzgüçülük yarışlarında 1500 metr məsafəyə sərbəst üsulla üzmə üzrə final mərhələsində birinci yerin sahibi Azərbaycan təmsilçisi Maksim Çemberov olub. İdmançımız 15:07.29 saniyəlik nəticə ilə bu uğura imza atıb. Maksim İslamiadada ikiqat çempionluğunu da yarışların üçüncü günündə rəsmiləşdirib. Üzgüçümüz 400 metr məsafəyə qarışıq üsulla üzmə yarışında da rəqibləri üçün əlçatmaz olub.

Mayın 14-də "Sərhədçi" İdman Olimpiya Mərkəzində "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının həndbol yarışlarına yekun vurulub. Qadın həndbolçuların yarışında Azərbaycan yığması çempion olub. Finalda Türkiyə kollektivi ilə qarşılaşan komandamız maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən oyundan 28:26 hesablı qələbə ilə ayrılaraq qızıl medallar qazanıb.

Mayın 14-də Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının keçirildiyi günlərdə qalib gələn və mükafatçılar sırasına düşən azərbaycanlı idmançıların şərəfinə "Zəfər günləri" adlı silsilə xarakterli xüsusi tədbirini keçirib.

Ağır atletika yarışlarının üçüncü günündə - mayın 15-də Azərbaycan millisi daha bir qızıl medal qazanıb. Qadınların yarışında 69 kiloqram çəki dərəcəsində çıxış edən Anastasiya İbrahimli birdən qaldırma hərəkətində 100, təkanla qaldırmada isə 119 kiloqramı başı üzərinə qaldırıb. Toplam 219 kiloqram (100+119 kq) nəticə göstərən A.İbrahimli qızıl medala sahib olub. O, İslam Həmrəyliyi Oyunları tarixində bu çəki dərəcəsində birdən qaldırma üzrə bir, təkanla qaldırmada iki, toplamda isə iki olmaqla, ümumilikdə 5 rekord yeniləyib.

Ümumiyyətlə, Azərbaycan idmançıları bütün növlərdə uğurla yarışırlar. Medalların sayına görə hazırda Azərbaycan yığması Türkiyə idmançılarından geri qalır. Qardaş ölkənin yığması 36, millimizin üzvləri 35 qızıl medal qazanıblar.

Cəmi Azərbaycanın aktivində 35 qızıl, 23 gümüş və 13 bürünc medal var. Türkiyə 36 qızıl, 33 gümüş və 27 bürünc medalla birinci pillədə qərarlaşıb. Üçüncü yeri isə 7 qızıl, 11 gümüş və 12 bürünc medal ilə İran tutur.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan-İran münasibətlərinin inkişafı Ermənistanı narahat edir

Erməni əsilli iranlı musiqiçi Meysam Hodratın qanunsuz olaraq Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə səfər etməsi və buna görə adının Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən "arzuolunmaz şəxslər" siyahısına salınması erməni mətbuatında hay-küyə səbəb olub.

Bakıda IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi və İran idmançılarının bu yarışda iştirakı, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən dəmir yolunun Ermənistandan deyil, Azərbaycandan keçərək İranı Rusiya ilə birləşdirməsi, qarşılıqlı investisiya yatırımlarının və ticarət dövriyyəsinin artması, İran və Azərbaycan prezidentlərinin dostluq əlaqələri və bir sıra başqa amillər Ermənistanın yuxusunu ərşə çəkib. Özünün işğalçılıq siyasəti nəticəsində təcrid olunmuş vəziyyətə düşməsinin günahını qonşu dövlətlərdə axtaran rəsmi Yerevan indi də Azərbaycan ilə İranın münasibətlərini korlamağa səy göstərir. Lakin İran qədim dövlətçilik ənənələrinə malik olan bir dövlət kimi belə məsələlərə o qədər də əhəmiyyət vermir. Bunu İranın Azərbaycandakı səfirliyinin nümayəndəsi Məhəmməd Rza Nəcəfinin bəyanatından da anlamaq çətin deyil. Diplomat bildirib ki, İran Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyır və dəstəkləyir. "Biz belə bir musiqiçini tanımırıq və Dağlıq Qarabağa rəsmi qaydada hər hansı bir musiqiçinin getməsi mümkün deyil".

Musiqiçi sadəcə olaraq həmvətənlərinin sözünü yerə salmayıb. O ki qaldı onun Ermənistan mətbuatına müsahibə verərək "Dağlıq Qarabağla İranın münasibətlərini yaxşılaşdırmağa çalışıram" deməsinə, qeyd etmək lazımdır ki, ona bu səlahiyyəti heç kəs verməyib. İranın bu məsələyə rəsmi mövqeyini yuxarıda göstərdik.

**AZƏRTAC**

Tibb xidməti leytenantı Rüstəmova Pərvanə Süleyman qızına 2016-cı ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Xanlarov Ruslan Xanbaba oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Axundov Eltuz Arif oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Haqverdiyev Təhmasib Ceyhun oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 201
Nüsxə 4650